# Seçicilər ən yaxşı namizədə etimad göstərdilər



## Gəncə

Gəncədə bələdiyyə seçkilərinə necə böyük marağın olmasını, seçici fəallığını görmək üçün elə veb-kameralara baxmaq kifayət idi. Lap səhər tezdən məntəqələrə gələnlərin sayı bir qədər az olsa da, artıq saat 10-11 radələrində seçicilər bülleten almaq üçün növbəyə dayanmışdılar. Şəhərin 40 məntəqəsində kameralar quraşdırılmışdı. Seçicilərin sərbəst şəkildə öz istəklərini ifadə etməsi üçün hər bir şərait yaradılmışdı.

Mərkəzi kitabxanada yerləşən 15 saylı məntəqədəyik. 38 saylı Nizami ikinci seçki dairəsinə daxil olan məntəqədə 1457 seçici var. Məntəqənin sədri Şəmşir Vəliyev deyir ki, bələdiyyə seçkilərində belə bir yüksək fəallığı ilk dəfədir görürəm. Hiss olunur ki, bələdiyyə institutlarına inam, etibar nəzərəçarpacaq dərəcədə artıb.

39 saylı Kəpəz birinci seçki dairəsinin 13 saylı seçki məntəqəsində də qələbəlikdir. Məntəqə seçki komissiyasının sədri Nizami Rzayev söhbət zamanı dedi:

– Məntəqəmizdə 1225 nəfər seçici var. Daşınan qutularımız olsa da, hələlik heç kim onun evə aparılmasını xahiş etməyib.

Müşahidəçilərlə ayaqüstü söhbətdən də məlum oldu ki, heç bir qanun pozuntusuna yol verilməyib və səsvermə prosesi öz qaydasında gedir.

Qeyd edək ki, Gəncədə 4 dairə fəaliyyət göstərir. 37 saylı Nizami birinci seçki dairəsi üzrə 24 açıq, 1 qapalı məntəqə var. Burada seçicilərin sayı 33 min 354 nəfərdir. Onlardan 462 nəfəri qapalı məntəqədə səs verir. 37 saylı Nizami birinci seçki dairəsinin 10 məntəqəsində veb-kamera quraşdırılıb. DSK üzrə 18 yaşı tamam olan 181 nəfər ilk dəfə səs verir.

38 saylı Nizami ikinci seçki dairəsi üzrə 24 açıq, 1 qapalı məntəqə var. DSK üzrə seçici sayı 34 min 366 nəfərdir. Onlardan 500 nəfəri qapalı məntəqədə səs verir. 38 saylı Nizami ikinci seçki dairəsinin 10 məntəqəsində veb-kamera quraşdırılıb. DSK üzrə 18 yaşı tamam olan 157 nəfər də ilk dəfə səs verir.

39 saylı Kəpəz birinci seçki dairəsi üzrə 29 açıq, 2 qapalı məntəqə var. DSK üzrə seçici sayı 41 min 568 nəfərdir. Onlardan 2 min 418 nəfəri qapalı məntəqədə səs verəcək. 39 saylı Kəpəz birinci seçki dairəsinin 9 məntəqəsində veb-kamera quraşdırılıb. DSK üzrə 18 yaşı tamam olan 249 nəfər ilk dəfə səs verirlər. Məlumat aldıq ki, onlardan 4 nəfərinin 18 yaşı elə seçki günü, yəni dekabrın 23-də tamam olur. Ən yaşlı seçici isə Babayeva Yəmən Mürsəl qızıdır. 1916-cı ildə anadan olan Yəmən nənənin hazırda 103 yaşı var.

40 saylı Kəpəz ikinci seçki dairəsi üzrə 30 məntəqə var. DSK üzrə seçicilərin sayı 42 min 85 nəfərdir. 40 saylı Kəpəz ikinci seçki dairəsinin 11 məntəqəsində veb-kamera quraşdırılıb. Burada 18 yaşı tamam olan 283 nəfər ilk dəfə səs verir. Onlardan Məmmədov Bayram Yaşar oğlunun da 18 yaşı elə seçki günü tamam olub. Gəncə Şəhər Kəpəz rayon bələdiyyəsinə 19 üzv seçiləcək. Qeydə alınan namizədlərin sayı isə 62 nəfərdir. Gəncə Şəhər Nizami rayon bələdiyyəsinə isə 19 üzv seçiləcək. Burada 71 namizəd qeydə alınıb.



Məlumat üçün bildirək ki, Nizami və Kəpəz rayonları, habelə Hacıkənd qəsəbə bələdiyyələrinə 43 üzv seçiləcək. Üç bələdiyyə üzrə, bütövlükdə, 145 namizəd qeydə alınıb.

37 saylı Gəncə-Nizami seçki dairəsi üzrə 25,69 faiz, 38 saylı Gəncə-Nizami ikinci seçki dairəsi üzrə 32,05 faiz, 39 saylı Kəpəz birinci seçki dairəsi üzrə 29,58 faiz, 40 saylı Kəpəz ikinci seçki dairəsi üzrə 24,13 faiz seçici məntəqələrə gələrək öz iradəsini ifadə etmişdir.

## Quba

Quba rayonunda bələdiyyə seçkiləri azad və sərbəst şəraitdə keçirildi. 53 saylı Quba-Qusar seçki dairəsi iki rayonu əhatə edir. Dairə seçki komissiyanın sədri Rahim Qarayev bildirdi ki, dairə üzrə 76 məntəqə var. 19 bələdiyyə üzrə 183 yer uğrunda 527 nəfər namizəd mübarizə aparır.

Ümumilikdə, 53 saylı Quba-Qusar seçki dairəsində 48 min 624 nəfər seçici qeydiyyatdadır. Onlardan 741 nəfəri ilk dəfə səs verəcək vətəndaşlardır. Yaşı 100-dən yuxarı olan 3 seçici var.

R.Qarayevin sözlərinə görə, bütün məntəqələr lazımi avadanlıqlarla təmin olunub, 10 məntəqədə vebkameralar quraşdırılıb. 19 bələdiyyənin 4-ü Qusar rayonu ərazisində yerləşir. Seçki prosesində hazırda qeyri-qanuni hərəkətlər qeydə alınmayıb.

22 yaşlı Elxan Atamoğlanov dünən 53 saylı Quba-Qusar seçki dairəsinin Quba rayonunun Birinci Nügədi kənd tam orta məktəbinin binasında yerləşən məntəqəsinə gələrək, həyatında ilk dəfə olaraq bələdiyyə seçkilərində iştirak edib.

Elxan ali təhsilli hüquqşünasdır. Ötən il Bakı Dövlət Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirib. Ali təhsilini başa vurduqdan sonra Milli Orduda əsgəri xidmətdə olub. Hazırda ixtisası üzrə işləmək üçün dövlət qulluğu üzrə imtahanlara ciddi hazırlaşır.

– E.Atamoğlanov fəxrlə dedi: Mən müstəqil Azərbaycanın vətəndaşı olaraq bələdiyyə seçiklərində iştirakımdan çox məmnunam. Seçkilər bir daha göstərdi ki, ölkəmiz, həqiqətən sivil, demokratik inkişaf yolundadır. Seçkilərdə gənclərin fəal iştirakı məni xüsusilə sevindirdi. Biz gənclər möhtərəm Prezidentimiz İlham Əliyevin başladığı islahatları tamamilə dəstəkləyirik. Əminəm ki, Azərbaycanı qarşıda daha parlaq günlər gözləyir.

## Şəmkir

Şəmkirdə bələdiyyə seçkilərinə marağın yüksək olması təbiidir. Çünki hələ bir neçə il qabaq bu rayonda bələdiyyələrin fəallığını artırmaq üçün bir sıra tədbirlər görüldü. Xüsusilə bələdiyyələrin nəzdində MMC-lərin yaradılması sanki bu işdə bir dönüş nöqtəsi oldu və "bələdiyyələr heç bir iş görə bilmir, çünki vəsaitləri yoxdur" fikri alt-üst edildi. Elə kənd, qəsəbə, yaşayış məntəqəsi qalmadı ki, orada bələdiyyənin işi görünməsin. Hətta, Milli Məclisin bələdiyyələrlə iş üsrə komitəsi bu rayonun iş təcrübəsini yaymaq üçün Şəmkirdə komitə sədri Arif Rəhimzadənin rəhbərliyi ilə geniş bir mübadilə-təcrübə tədbiri keçirdi, rayonların bələdiyyə sədrləri ora dəvət edildi. Ona görə də 2019-cu ilin bələdiyyə seçkilərinə maraq bir qədər də artıb.

Şəhərdəki 98 saylı Şəmkir Şəhər Seçki dairəsinə daxil olan 1 saylı məntəqəyə baş çəkdik. Seçicilərin fəallığı ilk baxışdan bəlli olurdu. Əhməd Cavad adına Mədəniyyət evində bülleten götürüb seçki qutusuna yaxınlaşanların əməlli-başlı növbəsi yaranmışdı. Məntəqə seçki komissiyasının sədri Firdovsi Aslanov işinin çox olmasına baxmayaraq bizə yaxınlaşdı:

–Adamların bu seçkiyə marağı açıq-aşkar hiss olunur. Hələlik heç bir narazılıq, pozuntu yoxdur. Çox sərbəst şəkildə hərə öz istədiyi namizədə səs verir. Müşahidəçilərdən şikayət almamışıq.



Adını çəkdiyimiz bu dairədə 33 məntəqə fəaliyyət göstərir. Seçicilərin sayı 34 min 695 nəfərdir. Müxtəlif seçki məntəqələrində quraşdırılmış veb-kameralarla seçkinin gedişini sərbəst izləmək mümkündür. Bütövlükdə, Şəmkirdə 12 məntəqədə veb-kamera var.

Günün sonunda məlum oldu ki, Şəmkirdə seçicilərin 32,62 faizi bələdiyyə seçkilərində iştirak edib.

## Samux

Səhər tezdən, səsvermə başlamazdan əvvəl Samux-Şəmkir seçki dairəsinin sədri Bayram Qasımovla telefon əlaqəsi yaratdıq. Suallarımıza həvəslə cavab verdi. Dedi ki, dairə üzrə 45 min 464 nəfər seçici var. Onlar 51 məntəqədə səs verəcəklər. Bələdiyyə üzvlüyünə namizədlər də kifayət qədərdir. Bütövlükdə, 193 yerə 572 nəfər namizəd var. Yerli müşahidəçilər çoxdur. Ombudsman institutunun da nümayəndələri gəlib və bugünkü seçkinin təşkili ilə maraqlanıblar...

1 saylı məntəqədə səs verən 79 yaşlı Vaqif Qasımovla da telefon əlaqəmiz oldu:

– Xoşum gəldi, – dedi – Kimə istədimsə ona da səs verdim. Heç kim nəyisə, kimisə xahiş etmədi.

Məlumat verdilər ki, Qarayeri qəsəbəsindəki 6 saylı məntəqədə də seçicilərin fəallığı olub.

Dairə ilə yenidən əlaqə saxlamağa çalışırıq. Telefonların hamısı məşğuldur. Görünür, zəng edib, nəticələrlə maraqlananlar çoxdur. Nəhayət, biz də məlumat ala bilirik. 102 saylı Samux-Şəmkir seçki dairəsində 32,36 faiz seçici iştirak edib.

## Qazax

Son illər Qazaxda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Rayon icra hakimiyyətinin əlaqədar strukturlarla birgə səmərəli fəaliyyəti öz səmərəsini verib. Şəhər gözəlləşib, yeni park və xiyabanlar salınıb, yaşayış binaları öz görkəmini dəyişib, yollar çəkilib, məktəblər, uşaq bağçaları tamamilə yenidən qurulub, yeni xəstəxana kompleksi tikilib. Bütün bu işlərdə bələdiyyələrin də zəhməti var. Lakin əhali onlardan daha fəal, işgüzar və təşəbbüskar olmağı tələb edir.Buna görə də 2019-cu il bələdiyyə seçkilərində bir yerə təxminən 10 namizəd olanda heç kəs təəccüblənmədi. Çünki, bu sahənin işində yaxından iştirak etmək, doğma rayonu, kəndi, qəsəbəsi üçün iş görmək istəyən çoxdur.

Dünən 14 bələdiyyə yerinə 136 namizədə səs verildi. Səslər rayon üzrə 36 məntəqədə 44 min 736 nəfər seçici tərəfindən verilməli idi. Təbii ki, hamı, yüz faiz iştirak edə bilməsə də böyük əksəriyyət məntəqələrə gəlmişdi.

Qazax şəhər 1 nömrəli məktəbdə yerləşən 5 saylı məntəqə seçki komissiyasının sədri Mübariz Abdullayev bizimlə söhbətində bildirdi ki, 1425 seçici səs verməlidir. Onlardan 4 nəfərinin yaşı 90-nı keçib. Lakin heç biri daşınan qutu istəməyib. Deməli, özləri məntəqəyə gələcəklər.



Müşahidəçi Səadət İskəndərova qeyd etdi ki, heç bir qanun pozuntusuna yol verilməyib.Hər kəs çox sərbəst şəkildə istədiyi namizədə səs verir.

107 saylı Qazax seçki dairəsində seçicilərin 34,40 faizi səs vermişdir.

## Füzuli

84 saylı Füzuli seçki dairəsi üzrə 71 seçki məntəqəsi fəaliyyət göstərir. Rayon ərazilərinin böyük hissəsi işğal altında qaldığından, əhalinin xeyli hissəsi məcburi köçkün olduğundan 46 məntəqə rayon ərazisində, 25-sı isə ölkənin şəhər və rayonlarında təşkil edilmişdir.

Dairə seçki komissiyasının sədri Ramiz Teymurovdan aldığımız məlumatda bildirilir ki, bütün məntəqələr üzrə seçici siyahıları vaxtında dəqiqləşdirilmiş, müvafiq məlumat lövhələrində asılmışdır. Bələdiyyə seçkisi ilə bağlı təlimat, qayda və izahlar, plakatlar təqvim üzrə seçki məntəqələrinə paylanmışdır. Səsvermədən əvvəlki müddətdə 46 min 313 nəfər seçiciyə bildirişlər çatdırılmışdır. Dairə üzrə 493 nəfər ilk dəfə səs verən gənclə ayrıca maarifləndirmə söhbəti aparılmışdır. Bütün məntəqərdə səsvermənin ahəngdar keçməsi üçün əvvəlcədən lazımi texniki-təşkilati tədbirlər həyata keçirilmişdir.

Bələdiyyə seçkiləri rayon üzrə 21 bələdiyyəni əhatə edən 44 məntəqədə təşkil edilmiş, 31 min 875 nəfər seçici səsverməyə dəvət almışdır. Seçki gününə 5 gün qalmış Yuxarı Kürdmahmudlu və Horadiz bələdiyyəsinə aid 2 müvəqqəti seçki məntəqəsi yaradılmışdır. Əhalinin sayına əsasən, səsvermə günü 21 bələdiyyəyə 189 üzv seçmək üçün rayon üzrə namizədliyi irəli sürülmüş 535 nəfər səsə qoyulmuşdur.



Günün sonunda aldığımız məlumatda bildirilir ki, dairənin bütün məntəqələrində səsvermə mütəşəkkil, seçici fəallığı şəraitində keçmişdir. Seçicilərin 33,16 faizi səs verib.

## Zərdab

Zərdab rayonunun 58 min 929 nəfər əhalisinin 35 min 788 nəfəri səsvermə yaşında olan vətəndaşlardır. Onlar bələdiyyə seçkisi günü 92 saylı Zərdab-Ucar seçki dairəsi üzrə 42 məntəqədə səs vermişlər.

Dairə seçki komissiyasının sədri Mehdi İsmayılovdan aldığımız məlumatda qeyd edilir ki, rayon ərazisində olan bütün seçki məntəqələrində təmir və təchizat işləri aparılmış, lazımi şərait yaradılmışdır. Zərdab şəhər 2 və 4 saylı, Təzəkənd, Gəlmə Şıxbağı, Dəkkəoba, Çallı, Birinci Alıcanlı, İkinci Alıcanlı, Lələağacı, İsaqbağı Məlikumudlu, Pərvanlı, Qoruqbağı, Aşağı Seyidlər, Qaravəlli səsvermə məntəqələri yeni tikilmiş, əsaslı təmir edilmiş məktəb və uşaq bağçalarının binalarında fəaliyyət göstərir. Zərdab şəhər 1, 2, 3, 4 saylı, Qoşaoba, Qoruqbağı, Məmmədqasımlı, Gəlmə seçki məntəqələrində veb-kameralar quraşdırılmışdır.

Rayon məntəqələri üzrə ilk dəfə səs verən 832 gənc seçici ilə ayrıca söhbət aparılmış, onlar səsvermə proseduru ilə qabaqcadan tanış edilmişlər. Namizədlərin seçicilərlə görüşləri üçün 27 açıq, 27 qapalı yer ayrılmış, təşviqat kampaniyası üçün zəruri şərait yaradılmışdır. Bütün bunlar seçki marafonunun Seçki Məcəlləsinin tələbləri səviyyəsində başa çatmasını təmin etmişdir.

Dairə seçki komissiyasının operativ məlumatına görə səsvermə günü seçicilərin 32,10 faizi məntəqələrə gələrək bələdiyyələrə yeni üzvlərin seçilməsində iştirak etmişlər.

## Abşeron

Rayondakı 45 saylı Abşeron və 50 saylı Abşeron-Qobustan seçki dairələri fəaliyyət göstərir. Rayon üzrə ümumi seçicilərin sayı 75 minə yaxındır. Səsvermə azad və sərbəst şəraitdə keçirilib. Seçici fəallığı kifayət qədər yüksək olub. Səsvermə prosesinə 590 müşahidəçi nəzarət edib.

45 saylı Abşeron seçki dairəsinin sədri Dilşad Abbasova dedi ki, dairədə 34 məntəqə fəaliyyət göstərir.

## Saatlı

Saatlı rayonu üzrə bələdiyyə üzvlüyünə 945 nəfər namizəd mübarizə aparıb. Rayon üzrə 670 nəfər müşahidəçi var. Onlar müxtəlif partiyaları təmsil edirlər. 8 məntəqədə veb-kamera fəaliyyət göstərir. Seçki üçün hər cür şərait yaradılıb.

62 saylı Saatlı seçki dairəsi üzrə 39 məntəqə var. Dairə üzrə 41 min 880 seçici qeydə alınıb. Dairə komissiyasından bildirdilər ki, seçkilər yüksək səviyyədə keçirilib. Seçicilər ruh yüksəkliyi ilə seçki məntəqlərinə gələrək istədikləri namizədə səs veriblər.

## Hacıqabul

58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsinin seçki məntəqələrində seçkilər obyektiv, ədalətli, demokratik və şəffaf şəkildə keçirilmişdir.

Səsvermə günü Seçki Məcəlləsinin tələblərinin hər hansı şəkildə pozulması halları baş verməmişdir. Belə ki, Hacıqabul rayonu üzrə 42 seçki məntəqəsində seçicilərin sayı səsvermə günü 41 min 631 nəfər olmuşdur.

Məntəqələrdə müşahidə aparılması üçün lazımi şərait yaradılmışdır.

## İmişli

79 saylı İmişli seçki dairəsi üzrə 43 məntəqə fəaliyyət göstərib. 11 saylı seçki məntəqəsində veb-kameralar quraşdırılıb.

Dairə seçki komissiyasından bildirdilər ki, rayonda bələdiyyə seçkiləri azad, demokratik şəraitdə keçirilib.

Bələdiyyə seçkilərində gənclər və qadınlar fəallıq göstəriblər.

***Hamlet QASIMOV,***
***Ziyəddin SULTANOV,***
***Səməd HÜSEYNOĞLU,***
***M.ABDULLAYEV,***
***"Xalq qəzeti"***